and the time constraints that arise in connection with this, make education specialists think about the issue of integrating various subjects. Looking at the education systems of foreign countries and the level of primary education, we see that similar subjects are taught. Similarities and identities are seen in the teaching of more modern subjects. Art subjects (music, visual arts, etc.) taught jointly as Art and technical sciences combined as Science are similar for most countries.

***Rəyçi:** baş müəllim Məmmədova Aytən Rafət qızı*
*Ümumi pedaqogika kafedrasının 11 yanvar 2023-cü il tarixli iclasın 08 saylı protokolou*
*Daxil olma tarixi 15 fevral 2023-cü il*

**UOT:37**

# İŞƏGÖTÜRƏNLƏRLƏ ƏMƏKDAŞLIQ "AZƏRBAYCAN RESPUBLİKASINDA PEŞƏ TƏHSİL VƏ TƏLİMİNƏ DAİR STRATEJİ YOL XƏRİTƏSİ"NİN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

***Piriyeva Təranə Zakir qızı***
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı***
***Bakı Qızlar Universitetinin baş müəllimi***
***piriyeva.tarana.zakir@gmail.com***

**Xülasə:** *Bu məqalədə Azərbaycan təhsil sisteminin strateji istiqamətlərdən biri kimi peşə təhsili sahəsində işəgötürənlərlə əməkdaşlıq işinin əhəmiyyətlilik səviyyəsi araşdırılmış, uzunmüddətli baxışlar və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışlar səviyyəsində işəgötürənlərlə əməkdaşlığın qurulması istiqamətləri təhlil edilmiş, bu sahə üzrə icra edilmiş işlər nəzərdən keçirilmiş, mövcud sahə üzrə problemlərin aradan qaldırılması sahəsində təkliflər irəli sürülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminə dair Strateji Yol Xəritəsi" konkret prioritet istiqamətlər üzrə icra müddətləri və mexanizmləri, tədbirlər, nəticə indiqatorları və icra müddətləri göstərilməklə hazırlanmışdır. İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası Strateji Yol Xəritəsinin beş strateji hədəfindən biri olaraq müəyyən edilmişdir və bu artıq mövcud sahənin əhəmiyyətlilik səviyyəsini artırır, eyni zamanda mövcud sahədə xüsusi araşdırmaya ehtiyacı zəruri edir.*

**Açar sözlər:** strateji yol xəritəsi, peşə təhsili pilləsi, işəgötürənlərlə əməkdaşlıq, strateji prioritet hədəflər, pilot peşə təhsili müəssisələri

**Ключевые слова:** стратегическая дорожная карта, уровень профессионального образования, сотрудничество с работодателями, приоритетные стратегические цели, пилотные учреждения профессионального образования

**Keywords:** strategic roadmap, level of professional education, cooperation with employers, priority strategic goals, pilot vocational education institutions

Strategiyalar və ya strateji yol xəritələri dövlət siyasəti ilə sıx bağlı olmaqla yanaşı, onun vəzifələrinin yerinə yetirilməsini təmin edir. Strategiya yaxşı müəyyən edilmiş, ümumi komponentləri, addımları, alətləri, istiqamətləri və hədəfləri (vizyonu) özündə əks etdirən yol xəritəsidir. Müxtəlif komponentləri müəyyən edilmiş, gələcəkdə arzu olunan vəziyyətə nail olmaq vasitəsi və mühüm planlaşdırma prosesinin nəticəsi kimi strategiya- həyata keçirilən bir fəaliyyətdir. Bu fəaliyyət isə bənzərsiz və təkrarolunmayan səriştələr əsasında icra edilməlidir. Səriştələr funksiyaları və tapşırıqları uğurla yerinə yetirmək üçün tələb olunan əlaqəli bilik, bacarıq və vərdişlərin toplusunu yüksək məharətlə tətbiq etmək və ya istifadə

etmək qabiliyyəti ilə müəyyən edilir. Qısaca desək, strategiya "olduğumuz yer" ilə "olmaq istədiyimiz yer" arasındakı boşluğu aradan qaldırır.

İlk strategiya ilə bağlı düşüncə və fikirlər miladdan öncə IV əsrdə yaşayan və "Müharibə sənəti" kitabının müəllifi olan Sun Tszının açıqlamaları ilə bağlıdır. Onun fikirlərinə görə strategiya açıq münaqişələrin qarşısını almaqla dəyişən şəraitdən istifadə etmək, vəziyyət dəyişikliyini nəzərə almaq qabiliyyətidir. (4, səh. 112)

Uzun müddət hərb sənətinin bir hissəsini əhatə edən strategiya anlayışı məqsədəuyğunluluq, ümumi plan və qarşıya qoyulmuş tədbirlərin mütəmadi olaraq həyata keçirilməsi sayəsində müharibədə qələbə qazanmaq yolu olmuşdur.

İngilis ensklopediyasında strategiya "hərbi məqsədlərin həyata keçirilməsi üçün bütün milli qaynaqlardan və ya resurslardan istifadə etmək üçün elm və ya sənət sahəsi kimi izah edilir. Burada strategiya termininin qədim Afinada seçilmiş general olan yunan strateqosunun adından götürüldüyü, strateqoilərin isə əsasən birləşmiş siyasi və hərbi səlahiyyətə malik hərbi liderlər olduğu qeyd edilmişdir. (9)

Digər bir mənbədə "sərkərdə olmaq sənəti" kimi qəbul edilmiş strategiya sözünün lüğəvi mənası "orduya rəhbərlik, yaxud hərbi əməliyyat keçirmə və ya ordunu idarə etmə bacarığı, ümumilikdə, fənd və ya məharət" kimi izah edilmişdir. Yunan mənşəli söz olan strategiya "stratos" (ordu) və "agein" (rəhbərlik etmək) sözlərinin birləşməsindən yaranmışdır və "strategos" (ordu rəhbəri) kimi başa düşülür. (5, səh. 9)

Strategiya- müharibə nəzəriyyəsinin ayrılmaz tərkib hissəsi kimi yaranmasına baxmayaraq, müasir şəraitdə bu termin praktiki olaraq ictimai həyatın bütün istiqamətlərində, xüsusilə də iqtisadiyyat, siyasət, təhsil sahəsində uğurla tətbiq edilməkdədir.

Təhsil sahəsində konseptual sənəd olan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir və bu sahədə islahatların uğurla həyata keçirilməsində xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, inkişaf istiqamətlərini özündə ehtiva edir. (1)

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 19 yanvar 2015-ci il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nda peşə təhsili istiqamətində cəmiyyətin tələblərinə uyğun səriştə əsaslı peşə təhsili standartlarının və kurikulumlarının, cəmiyyətin və iqtisadiyyatın tələblərinə uyğun olaraq hər bir ixtisas üzrə müasir standartların hazırlanması və s. kimi strateji hədəflər müəyyən edilmişdir. Lakin, peşə təhsili sahəsində islahatların sistemliliyinin və mütəmadiliyinin təmin edilməsi və peşə təhsili sahəsinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 16 mart 2016-cı il tarixli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır ki, bunlardan biri "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"dir. (2, səh 6)

Strateji Yol Xəritəsi 2020-ci ilədək strateji, 2025-ci ilə qədərki dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışlardan ibarət olmaqla yanaşı, təkcə inkişaf məqsədlərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meylləri, görüləcək tədbirləri, tələb olunan investisiya və gözlənilən nəticələri əhatə edir.




***Cədvəl: 1.***

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin başlıca istiqamətləri rəhbər tutulmaqla, Azərbaycan Respublikasının peşə təhsili və təlimi sistemində aşağıdakı ***strateji hədəflər*** müəyyən edilmişdir:

- işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası;
- nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması;
- məqsədli peşə inkişafı proqramlarının yaradılması;
- sektorlar üzrə spesifik proqramların yaradılması;
- peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi. (3, səh. 3)

"Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin ilkin hədəflərdən biri kimi müəyyən edildiyi üçün işəgötürənlərlə əməkdaşlığın imkan və tətbiqi mexanizmlərinin dərindən tədqiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, qlobal aləmdə müasir peşə təhsili müəssisələrini səciyyələndirən əsas xüsusiyyət dəyişən əmək bazarının tələblərinə çevik uyğunlaşan peşə təhsili proqramlarının hazırlanmasıdır. Bu məsələni işəgötürənlərin tələblərini nəzərə alaraq mütəmadi yenilənən peşə standartları və təlim proqramlarının (kurikulumların) hazırlanması yolu ilə təmin etmək və işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası vasitəsilə nail olmaq mümkündür. Bununla yanaşı peşə təhsili məzunları üçün təhsildən məşğulluğa keçidin təmin edilməsi sahəsində istehsalat təcrübələri məhz real sektorla, yəni işəgötürənlərlə əməkdaşlıq nəticəsində geniş imkanlar yarada bilər.

İlk strateji hədəf olan işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası işəgötürənlərlə əməkdaşlığın qurulması və peşə təhsili sisteminə ixtisaslı yeni mütəxəssislərin cəlb edilməsi kimi iki prioritet istiqaməti özündə ehtiva edir və hər iki prioritet istiqamət üzrə görüləcək işlər tədbirlər planında əsas və digər icraçılar, tövsiyyələr, nəticə indikatorları və icra müddətləri göstərilməklə qruplaşdırılmışdır. Tədbirlər planında pilot peşə təhsili müəssisələrində işəgötürənlərlə əməkdaşlıq mexanizmlərinin qurulması işinin Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Naziriyinin birgə əməkdaşlığı sayəsində həyata keçirilməsi xüsusi vurğulanmışdır.

İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən özəl və dövlət sektorunu təmsil edən işəgötürənlər və işəgötürən birlikləri ilə peşə təhsili müəssisələri arasında müxtəlif səviyyələrdə əməkdaşlığın qurulması və bu strateji hədəfə müxtəlif istiqamətlər üzrə nail olunması Strateji Yol Xəritəsində aşağıdakı ardıcıllıqda qeyd edilmişdir:

1. Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması;

2. Peşə təhsili və təlimi müəssisələrinin mövcud vəziyyətinin hərtərəfli araşdırılması və optimallaşdırılması ilə bağlı tədbirlər planının hazırlanması;

3. İri sənaye mərkəzlərində və regionlarda optimallaşdırma prosesinin həyata keçirilməsi;

4. Pilot peşə təhsili müəssisələrinin qurulması;

5. Pilot peşə təhsili müəssisələrində işəgötürənlərlə əməkdaşlıq mexanizminin qurulması, peşə standartları və kurikulumların işlənilməsi;

6. Pilot peşə təhsili müəssisələri haqqında ictimai məlumatlılığın təmin edilməsi və qəbulun aparılması;

7. Əməkdaşlıq proqramları üzrə monitorinq və nəzarətin təşkili;

8. Əməkdaşlıq proqramlarının səmərəliliyi ilə bağlı məlumatların ictimaiyyətə açıqlanması;

9. Pilot peşə təhsili müəssisələrində tətbiq olunan peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) digər peşə təhsili müəssisələrində tətbiqi. (3, səh. 43-44)

Özəl sektorların peşə təhsili sisteminə dəstəyini isə dövlət-özəl əməkdaşlıq sahəyində təmin edilməsi əsas imkanlardandır. Strateji Yol Xəritəsində pilot layihə kimi 2020-ci ilə qədər dövlət-özəl əməkdaşlığına əsaslanan mexanizmin işlənib hazırlanması, pilot layihə olaraq bir neçə peşə təhsili müəssisəsində həyata keçirilməsi strateji baxış olaraq müəyyən edilmişdir.

Fikrimizcə, bu cür əməkdaşlıq sayəsində özəl sektorun maddi-texniki bazasından və mütəxəssislərindən istifadə etməklə peşə təhsili müəssisələrinə dəstək verilməsinə və işəgötürənlərin tələblərinə uyğun qurulmuş təhsil proqramlarının (kurikulumların) hazırlanmasına və bütün bunlar isə keyfiyyətli peşə təhsili sisteminin yaradılmasına səbəb olacaqdır.

Bir məsələni də xüsusi ilə vurğulamaq lazımdır ki, Strateji Yol xəritəsində tədbirlər planı yalnız 2020-ci ilədək olan dövrü özündə əks etdirir, uzunmüddətli və hədəf baxışlar üzrə tədbirlər planı stategiyada əhatə olunmamışdır. Lakin, 2025-ci ilədək ***uzunmüddətli baxışda*** peşə təhsili və təlimi üzrə iqtisadiyyatın müxtəlif sektorlarından olan işəgötürənlərlə sıx əməkdaşlıq sayəsində əmək bazarının tələblərinə cavab verən peşə standartları və təhsil proqramları (kurikulumlar) əsasında ixtisaslı işçi qüvvə hazırlayan funksional peşə təhsili sisteminin formalaşdırıması və 2020-ci il üzrə strateji baxış çərçivəsində pilot olaraq yaradılmış peşə təhsili müəssisələrinin təcrübələrinə əsaslanmaqla işəgötürənlərlə geniş əməkdaşlıq çərçivəsində yeni peşə təhsili müəssisələrinin tikilməsi xüsusi olaraq vurğulanmışdır. Srateji Yol Xəritəsində işəgötürənlərlə əməkdaşlığın sistemli şəkildə qurulması sayəsində hətta Azərbaycanın peşə təhsili müəssisələri ilə beynəlxalq əməkdaşlığın qurulması istiqaməti öz əksini tapmışdır. Peşə təhsili müəssisələri ilə əməkdaşlıq nəticəsində hər il müəyyən sayda tələbənin işlə təmin edilməsi sayəsində 2025-ci ilədək peşə təhsili müəssisələrinə qəbul sayının artırılması nəzərdə tutulmuşdur.

2025-ci ildən sonrakı dövrdə ***hədəf baxış*** artıq işəgötürənlərin peşə təhsili sisteminə təhsil proqramının (kurikulumun) hazırlanmasından başlamış maliyyələşdirilməyə qədər hərtərəfli şəkildə inteqrasiya olunması əməkdaşlığın (müəyyən edilmiş: aşağı, orta və yuxarı səviyyələrdən) yuxarı səviyyəsinin təmin edilməsi, bəzi peşə təhsili müəssisələri tərəfindən işəgötürənlərin daha spesifik ehtiyaclarının təmin edəcəyi, tamamilə və ya əsas etibarilə özəl şirkətlər tərəfindən maliyyələşdirilməsi xüsusi vurğulanmışdır.

Strateji Yol Xəritəsinin 2020-ci il üzrə əsas ***hədəf indikatorları (göstəriciləri)*** müəyyən edilmişdir ki, bu indikatorlardan biri müxtəlif istiqamətli 10 pilot peşə təhsili müəssisəsi ilə işəgötürənlərin əməkdaşlıq əlaqələrinin təşkilidir. Sadalanan digər ümumtəhsil müəssisələrinin məzunlarının peşə təhsili müəssisələrinə qəbul səviyyəsinin 25 faizə qaldırılması, pilot peşə təhsili müəssisələrinin məzunlarının məşğulluq səviyyəsinin 6 ay

ərzində 50 faizə çatdırılması, pilot peşə təhsili müəssisələrində təhsilalanların sayının 50 faiz artması kimi digər hədəf indikatorularına da işəgötürənlərlə əməkdaşlıq sayəsində nail olmaq mümkündür. Belə ki, işəgötürənlərin peşə təhsili sisteminə təhsil proqramının (kurikulumun) hazırlanmasından başlamış maliyyələşdirilməyə qədər hərtərəfli şəkildə inteqrasiyanın təmin edilməsi nəticəsində peşə təhsili sektorunun ictimai nüfuzunun artırılmasına, Azərbaycanda peşə təhsili məzunlarının gələcək karyerasında müəyyənliyin yaranmasına və peşə təhsili pilləsinə qəbul planının artırılması tələbatına səbəb olacağı şübhəsizdir.

Yol Xəritəsində starteji hədəflərə nail olmaq istiqamətində informasiyanın toplanması, müşahidə, təhlil, qiymətləndirmə və prioritetlərin icra vəziyyətinin effektivliyinin proqnozlaşdırılması baxımından monitorinq müstəsna əhəmiyyətə malikdir. Bu məqsədlə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin 1 yanvar 2019-cu il tarixinə olan icra vəziyyəti təqdim edilir:




***Cədvəl 2. (7, səh. 3. əsasında hazırlanmışdır)***

Azərbaycan Respublikasında milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin 2017-2020-ci illər üzrə monitorinq və qiymətləndirmə hesabatına əsasən peşə təhsili və təlimi sahəsində Strateji Yol Xəritəsinin 68% icra olunduğu qeyd edilmişdir. (7, səh. 9)

Bununla yanaşı, Strateji Yol Xəritəsi üzrə müəyyən edilmiş əsas strateji hədəf olan işəgötürənlərin peşə təhsili və təlimi sahəsinə inteqrasiyası sahəsində 2017-ci ilin yekununda həyata keçirilmiş işlərin icra vəziyyəti aşağıdakı diaqram üzrə təqdim edilir:




***Cədvəl 3. (8, səh 1 əsasında hazırlanmışdır)***

Strateji Yol Xəritəsinə əsasən müəyyən edilmiş tədbirlər planına nəzər yetirsək birinci strateji hədəf olan işəgötürənlərlə əməkdaşlıq işinin qurulması istiqamətində icra müddətinin 2020-ci ilin sonunadək başa çatdırılması üçün icra müddəti müəyyən edilmişdir.

Pilot peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əməkdaşlıq əlaqələri qurulmuş, 2020-ci il ərzində 14 işəgötürən ilə əməkdaşlıq haqqında "Anlaşma Memorandumu" imzalanmış, istehsalat təcrübəsinin təşkilinə ümumilikdə 1189 işəgötürən dəstək göstərmiş və 13269 tələbə cəlb edilmişdir. (7, səh. 104)

Lakin yuxarıda qeyd edilən göstəricilər ümumi statistikaya nisbətdə peşə təhsili müəssisələrini tam əhatə etmədiyi üçün müəyyən edilmiş prioritetlərə nail olmaq mümkün deyildir. Bununla yanaşı daha sonrakı dövrlər üzrə etibarlı mənbələr tərəfindən Starteji Yol Xəritəsinin icra vəziyyəti barədə hesabatlar təqdim edilmədiyi üçün real mənzərə barədə təsəvvürlər formalaşdırmaq baxımından maneələr yaradır.

Yekun olaraq belə qənaətə gəlmək olar ki, düzgün resurslarla əlaqələndirilmə olmadıqda effektiv nəticələrə nail olmaq mümkün deyildir. Çünki ideyalar düzgün resurlara və imkanlarla qovuşduqda yeniliklər meydana çıxa bilər. Əks təqdirdə ideyalar ayrılıqda faydasızdır. Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması istiqamətində uğurlu nəticələr yalnız işəgötürənlərlə düzgün mexanizmə malik əməkdaşlıq sayəsində əldə edilə bilər.

### *Ədəbiyyat*

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. //www.president.az/articles/9779.
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 111 səh. http:www.president.az/articles/21993.
3. "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafina dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 52 səh.
4. "Müharibə sənəti" Müharibə etmədən qalib gəlmək doktrinası, Sun Tszı, Kastaş yayın evi, 2008. 219 səh. https://mir.az/kitab/2892-sun-tzu-muharibe-seneti-pdf.html
5. The Strategy Pocketbook by Neil Russell-Jones. Printed in U.K., 2005. 108 page
6. https://monitoring.az/assets/upload/files/SYX-2018.pdf
7. https://monitoring.az/assets/images/slider/20220706110835_pdfwzPu09.pdf
8. https://vet.edu.gov.az/uploads/6_Pese_tehsili_opt.pdf
9. https://www.britannica.com/topic/strategy-military

## СОТРУДНИЧЕСТВО С РАБОТОДАТЕЛЯМИ КАК ОДНО ИЗ ВАЖНЫХ НАПРАВЛЕНИЙ «СТРАТЕГИЧЕСКОЙ ДОРОЖНОЙ КАРТЫ ПО ПРОФЕССИОНАЛЬНОМУ ОБРАЗОВАНИЮ И ПОДГОТОВКЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ»

***Пириева Тарана Закир***

### *Резюме*

В данной статье рассмотрен уровень важности сотрудничества с работодателями в сфере профессионального образования как одного из стратегических направлений системы образования Азербайджана, направления налаживания сотрудничества с работодателями на уровне долгосрочного видения и целевого видения на период после 2025 года проанализированы работы, проведенные в этой области, выдвинуты текущие предложения области в области решения проблем. Подготовлена «Стратегическая дорожная карта по профессиональному образованию и обучению в Азербайджанской Республике», утвержденная Указом Президента Азербайджанской Республики от 6 декабря 2016 года, с указанием сроков и механизмов

реализации, мер, индикаторов результатов и сроков реализации по конкретным приоритетным направлениям. Интеграция работодателей в систему профессионального образования и обучения определена в качестве одной из пяти стратегических целей Стратегической Дорожной Карты, и это повышает уровень важности той области, но также обуславливает необходимость проведения специальных исследований в области существующее поля.

## COOPERATION WITH EMPLOYERS AS ONE OF THE IMPORTANT DIRECTIONS OF THE "STRATEGIC ROAD MAP ON VOCATIONAL EDUCATION AND TRAINING IN THE REPUBLIC OF AZERBAIJAN"

***Piriyeva Tarana Zakir***

***Summary***

This article considers the level of importance of cooperation with employers in the field of vocational education as one of the strategic directions of the education system of Azerbaijan, the directions of establishing cooperation with employers at the level of long-term vision and target vision for the period after 2025, analyzes the work carried out in this area, puts forward current proposals of the field in the field of problem solving. The "Strategic Roadmap for Vocational Education and Training in the Republic of Azerbaijan", approved by the Decree of the President of the Republic of Azerbaijan on December 6, 2016, was prepared, indicating the terms and mechanisms of implementation, measures, indicators of results and deadlines for specific priority areas. The integration of employers into the system of vocational education and training is defined as one of the five strategic goals of the Strategic Roadmap, and this increases the level of importance of this area, but also necessitates special research in the field of the existing field.

***Rəyçi:Bakı Slavyan Universitetinin Pedaqogika və psixologoya kafedrasının müdiri, prof. Piralı Əliyev***

***Az.Res. Təhsil İnstitutunun Təhsilin idarə olunması və İqtisadiyyatı şöbəsinin 06 fevral 2023-cü il tarixli iclasın 01 saylı protokolu***

***Daxil olma tarixi 28 fevral 2023-cü il***

**UOT:37.**

## TAPŞIRIQLAR VASİTƏSİLƏ KİÇİKYAŞLILARDA NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FORMALAŞDIRILMASI

***Əliyeva Turə Əli qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Qazanılmış bacarıq və vərdişlərin təkmilləşdirilməsi şəraitində nəzarətin və özünənəzarətin inkişafına xidmət edən tapşırıqlar xüsusi rol oynayır. Vahid məqsədi olan bu tapşırıqlar məqsədə çatmaq üçün vasitə və formalar üzrə fərqlənirlər. Şübhə yoxdur ki, nəzarət və özünənəzarət bacarıqları zəif inkişaf etmiş şagird, müəllimdən gələn hər hansı bir məlumatı tənqidsiz və yoxlamasız qəbul edir və tapşırıqda olan gizli səhvlərə şübhəsi yaranmır. O, yalnız müəllimin tələblərini nəzərə alır və yerinə yetirir, gizlədilən səhvlərə əhəmiyyət vermir. Nəzarət və özünənəzarətin formalaşdırılması ilə bağlı əvvəllər xüsusi iş aparılmış şagird özünü tamam başqa cür aparır. Belə bir şagird müəllimdən məlumat aldıqdan sonra bütün tapşırıqları dərk etməyə başlayır, yəni onu diqqət obyektinə çevirir, yoxlayır və idarə edir. Belə şagird mətndəki gizli səhvləri asanlıqla aşkar edir və onları düzəldir.*

**Açar sözlər:** nəzarət və özünənəzarət, tədris tapşırıqları, gizli səhvlər, tənqidi təhlil, təlim məsələsi.